# "Ümummilli Lider Heydər Əliyevin böyük siyasət yolu xatirələrdə"

## "Danışır təcrübə" layihəsinin qonağı Həsən Həsənov olub










Elm və Təhsil Nazirliyi və tabe qurumların əməkdaşlarının davamlı inkişafının təmin olunması, liderlik və idarəetmə bacarıqlarının artırılması, müasir çağırışlara hazır olan kadrların yetişdirilməsi məqsədilə həyata keçirilən "Danışır təcrübə" layihəsi davam edir.

Layihənin budəfəki qonağı Azərbaycanın siyasi və dövlət xadimi, diplomat və tarixçi Həsən Həsənov olub.

Uzun illər Ulu Öndər Heydər Əliyevlə birgə çalışmış Həsən Həsənov "Ümummilli Lider Heydər Əliyevin böyük siyasət yolu xatirələrdə" mövzusunda çıxış edib, Ulu Öndər haqqında maraqlı xatirələrindən danışıb.

Görüş iştirakçıları Ümummilli Liderin hakimiyyəti illərində təhsilin inkişafı ilə əlaqədar verilən mühüm qərarlarla maraqlanıb, həyata keçirilən tədbirlər ətrafında müzakirə aparıblar.

Nazirlik və tabe qurumların əməkdaşları 1992-ci ildən xarici siyasət və diplomatiya sahəsində fəaliyyət göstərmiş Həsən Həsənovun iş və idarəetmə təcrübəsi ilə tanış olmaq imkanı da əldə edib, dövlət qulluqçuları olaraq onlar üçün Həsən Həsənovun təcrübəsinin çox faydalı olduğunu vurğulayıblar.

Sonda görüş iştirakçılarının çoxsaylı sualları cavablandırılıb.